**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SƏDRƏDDİN BAYRAM OĞLU HÜSEYN**

# ƏBULHƏSƏN RACİNİN YARADICILIQ YOLU

5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Teymur Əkbər oğlu Əhmədov**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Alxan Bayram oğlu Məmmədov**
filologiya üzrə elmlər doktoru, professor

**Almaz Əli qızı Məmmədova**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan Ədəbiyyatı Tarixi kafedrası

Müdafiə " 19 "____04______ 2016 -ci il saat ____ -da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən D.01.131 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:**AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı (IV mərtəbə)

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____"___________ 2016-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə elmlər doktoru,**
**professor:** **İmamverdi Yavər oğlu Həmidov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Əbulhəsən Racinin həyatı cənubi Azərbaycanın qarışıq, mürəkkəb və acınacaqlı bir dövrünə təsadüf edir. Ədəbiyyat aləmində idealist və kanon[1] maarifçiliyinin süqut etdiyi, islahatların və yeniləşmənin zərurət olduğu bir dövrdə klassik ənənələr, xüsusilə Füzuli təsiri qalmaqda, "mürtəce" dini ədəbiyyat da yüksələn xətlə inkişaf etməkdə idi. Mərsiyəçilik və məhərrəmlik mərasimləri insanları "cəhalətdə saxlayan" alətə çevrilirdi. Bu gedişata baxışlar müxtəlif olduğundan mərsiyə ədəbiyyatına uzun müddət obyektiv qiymət verilməmişdir. Sovet ədəbiyyatşünaslığı da problemə ideoloji nöqteyi-nəzərdən yanaşdığından belə mövzuların araşdırılmasına uzun müddət imkan olmamışdır. Halbuki ədəbiyyat xəzinəmizdən bu faktı çıxsaq, yerində qalan boşluq tamlığı və bir çox bağları qırmış olar. Bu səbəbdən Ə.Raci yaradıcılığının araşdırılması ədəbiyyatşünaslığın aktual məsələsidir.

Yuxarıların təzyiqi, ideoloji nöqteyi-nəzər, bəzən də qərəzli münasibətklassiklərin tədqiqində obyektiv, ədalətli yanaşmaya imkan vermirdi və indi də özünü göstərməkdə, ədəbiyyatımıza düzgün qiymət verməyə mane olmaqdadır. Bu dəyərləndirməyə münasibət bildirərkən Yaşar Qarayev: "Tam", "bütöv həqiqət" konsepsiyası klassik irsə yenidən qayıtmağı zəruri edir. ...Orta əsrlərin və yeni dövrün elə mühüm bədii, ictimai, fəlsəfi, dini, ideoloji hadisələri, abidələri, simaları var ki, onlar ən əsaslı, prinsipial, səriştəli təhlilə layiq olduğu halda, biz onlara münasibətdə səthi, qeyri-professional təftiş və elementar inkar məqamlarından irəli gedə bilməmişik" – qənaətinə gəlirdi.[2] Çünki bu yanaşma çox vaxt dövrün tələblərindən irəli gəlib. Həm də bu baxımdan XIX əsr ədəbiyyatımızı, onun nəhəng ədəbi simalarını yeni və fərqli bir yanaşma ilə araşdırmaq aktuallıq kəsb edir. Bu mənada dövrün ədəbi simalarından biri olan Əbulhəsən Raci də hələ ki, öz dəyərini almamış, haqqında geniş elmi araşdırmalar aparılmamışdır. Ötən müddətdə Bakıda kiril əlifbası ilə sadəcə bir "Divan"ı[3] çap olunmuşdur. Şeirlərindən görünür ki, Raci daha çox Füzulinin, qismən də Nəsiminin təsirindədir. Bununla belə, İslam dini, Şərq fəlsəfəsi, doğma xalqının poetik təfəkkürü, onun yaradıcılığına, qanına, iliyinə hopub. Kərbala müsibəti kədər notlarını gücləndirib, yaşadığı dövrdə xalqının bəla və müsibəti, şeirlərini göz yaşları ilə suvarmağa, öz

---

[1]Əliyev Rəhim.Ədəbiyyat nəzəriyyəsi. Bakı: Qanun, 2012, s.33
[2]Qarayev Yaşar. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, s.57
[3]Raci. Seçilmiş əsərləri. Tərtibçi Abıyev Hafiz. Bakı: Sabah, 1992

dərdini Kərbəla faciəsinə büküb ağlamağa səbəb olub. Elə bu deyilənlər də onun uzun zaman unudulmasına, tədqiqatdan kənarda qalmasına səbəb olub. Bir çox şairlər kimi Raci də sxolastik, "epiqonçu", mərsiyəxan kimi çox vaxt tənqid edilib, dışlanıb; ya da susublar, unudublar. Bizdə sovet, cənubda Pəhləvi rejimi, bizdə dinə qarşı qərəzli münasibət, orada dinin təhrifi, birtərəfli qəbulu Raci, Dəxil, Qumri, Dilsuz, Sərraf kimi "təriqət şairlərinin"[1]üzərinə xeyli vaxt kölgə salmış, bu zəngin xəzinənin üstünü örtmüşdür. Bir səbəb də adı çəkilən şairlərin yaradıcılığında gizli, ya açıq şəkildə, eyhamla, üstüörtülü olaraq rejimə qarşı yönəlmə, onun gizlinlərini aşkarlama olub. Onların tədqiqi, bu gizli və zəngin xəzinənin xalqa çatdırılması indi – müstəqil, sərbəst düşüncə imkanına malik bir şəraitdə reallaşır. Kərbəla mövzusunun aktuallığı bir də ondadır ki, düşmənlər islam dinini içdən parçalamaq üçün Kərbəla vaqeəsindən sui-istifadə edirlər. Bu gün islam coğrafiyasının az qala hər yerində yeni yezidlər, yeni şümrlər peyda olmaqda, haqqa, ədalətə, haqpərəstlərə sitəm etməkdə, dini dəyərləri ayaq altına almaqda, şeytani qüvvələrə rəvac verməkdə, yeni-yeni Kərbəla ocaqları yandırmaqdadırlar.

Nəhayət, bu mərsiyələri sinə döydürmək vasitəsindən qurtarıb ədəbi akta çevirməyin, onu həm ədəbiyyatşünasların, həm də oxucuların xidmətinə verməyin lazım gəldiyini, bu sahədə görüləcək işlərin zəruri olduğunu düşünürük. Belə olarsa, o şairlərin digər əsərləri də "mürtəcelik" düşüncəsindən xilas olub ədəbi fakt kimi tədqiqata cəlb edilər.

**Tədqiqatın məqsəd və vəzifəsi.** Əbülhəsən Racinin dövrünü, mühitini, həyat və yaradıcılığını ətraflı araşdırmaq, onun poetik irsinin ideya-bədii xüsusiyyətlərini, dil və üslubi məqamlarını, "Divan"da əksini tapmış şeirlərini ilk dəfə ayrıca dissertasiya şəklində öyrənmək, şairin ədəbiyyatımızdakı mövqeyini, rolunu müəyyənləşdirmək, ədəbi varislik əlaqələrində və eyni ədəbi məktəbə mənsub olan müasirləri arasında yerini təyin etməkdən ibarətdir. Buna görə dissertant aşağıdakı vəzifələri həll etməyə çalışmışdır:

– Ə.Racinin mühiti və həyatı ilə bağlı düzgün qənaətə gəlmək, qaranlıq və mübahisəli məsələlərə aydınlıq gətirmək;

– Arxivlərdə, kitabxanalarda, ayrı-ayrı şəxslərdə mövcud olan anadilli "Divan"larını, şairin haqqında aparılan araşdırmaları tədqiqata cəlb etmək,

– Ə.Racinin farsca "Divan"ına diqqət yetirmək;

[1]Alxan Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki (Qədim dövrlərdən 1930-cu ilədək). Bakı, 2013, s.84

– Ədəbiyyatımızda dini və təriqət motivlərinin bu vaxta qədərki açıqlamalarına münasibət, bunların Raci yaradıcılığında inikasını işıqlandırmaq;

– Şairin dünyəvi şeirlərini tədqiq etmək;

– Şairin dini məzmunlu şeirlərinin dəyərini, ədəbiyyatımızda yerini, bu sahədə Əbulhəsən Raci mərhələsini müəyyənləşdirmək;

– Sənətkarlıq xüsusiyyətlərini araşdırmaq;

– Şairin klassik poeziyamıza, folklora bağlılığını nümunələrlə şərh etmək;

– Şairin özündən əvvəl və sonrakı ədəbiyyatımızla varislik əlaqəsini üzə çıxarmaq;

– Ə.Raci irsinin ədəbiyyatımızdakı yerini müəyyənləşdirmək.

**Tədqiqat işinin obyekti.** Ə.Racinin Bakıda çap olunan "Divan"ı, kitabxanalardakı və bəzi şəxslərdə mövcud olan ana dilli və farsca "Divan"ları, əllərdə olan şeirləri, XIX əsr İran və Azərbaycan ictimai-siyasi tarixi, ədəbiyyatı barədə bir çox elmi araşdırmalar tədqiqata cəlb edilmişdir. Həm dövri mətbuata, həm elmi əsərlərə istinad edilmiş, digər klassik şairlərlə müqayisəli şəkildə tədqiq edilmişdir. Respublikanın arxivlərində saxlanan, İranda çap olunan bir sıra nəşrlərdən faydalanmaqla, Raci ilə bağlı yazılar, internet mənbələri, elektron kitablar mümkün qədər araşdırılmış, tədqiqata cəlb edilmişdir. Tədqiqat zamanı məlum olmuşdur ki, Ə.Racinin "Divan"ı "Seçilmiş əsərlər" adı ilə ilk dəfə 1992-ci ildə Bakıda çap olunmuşdur. Kitabın tərtibçisi və ön sözün, şərhlərin müəllifi Hafiz Abıyevdir. Burada 146 qəzəl, 2 qəsidə, 40 beytlik 1 təcnis,6 rübai, 9 mütəfərriqə, 1 mürəbbe, "Hekayəti-İbrahim Ədhəmi" adlı bir mənzumə, 84 növhə verilmişdir.[1]

Seyid Əzim Şirvani öz təzkirəsində Racinin bir sıra şeirlərini nümunə olaraq təqdim etməklə Səburun (farsca) şerinin bir qisminin tərcüməsini verir və "əhbabları"tərəfindən həmin il (1876) asari-farsi, türki və mərsiyələrinin Təbrizdə mətbu edildiyini bildirir. S.Ə.Şirvani şairin "Üzari-yar tutub türreyi-siyahdami" mətləli mürəbbisindən 13 bəndini, 9 qəzəlini və bir çox şeir parçaları vermişdir. O həm də dəqiqləşdirmələr apararaq Xalifeyi-xalxal Acizin bir qəzəlini Racinin kitabında "mülahizə qıldığını" qeyd edir və bunun üçün Acizin "Divan"ının daha əqdəm çap olunduğunu əsas göstərir.[2]

Lerikli Molla Qələmə məxsus bir "Divan" varislərindən Əhməd Qasımovdadır. "Divan"ın ön və son səhifələrində nasixə məxsus möhür

---

[1]Raci. Seçilmiş əsərləri. Tərtibçi Abıyev Hafiz. Bakı: Sabah, 1992, s.

[2]Şirvani S.Ə. Əsərləri. 3 cilddə. III c., Bakı, 1974. s.

var. Ön səhifədə həmçinin "Məhəmmədhüseyn Vələdi Molla Rüstəmzadə 1342 və Məmmədhüseyn vələdi Molla Rüstəmzadə 1343 (1924) Əliyyürrəhim" dərkənarlarından o tarixdə bu şəxslərdə olduğu bilinir. Ancaq ən mühümü 237-ci səhifədə farsca sinəzən və qəsidələrinin bitməsi haqda "tamam şod Divan 1292" qeydidir. Buradan "Divan"ın müəllifin ölümü ərəfəsində, ya da S.Ə.Şirvani demiş, ölən ili əhbabları tərəfindən mətbu edildiyi məlum olur. "Divan"iki hissəsədən ibarətdir. Ana dilində və farsca qarışıq olaraq 241 səh. və 137 səhifə olaraq tərtib edilmişdir. Sonunda isə "Mirzə Əli Vələdi Kərbəlayi Molla Məşədi Əhməd ağanın xahişi ilə çap olunub. 1296-nın ramazan ayında təb və təhrir şod" şəklində yazı var.[1]

**Tədqiqatın öyrənilmə vəziyyəti.** Ə.Raci haqqında ilk ən geniş məlumatı görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli verir. O, Ə. Raci divanının Təbrizdə dəfələrlə çap olunmasını qeyd edərək bu işdə iki böyük qüsura yol verildiyini göstərir:

1. İranda çap olunan kitabların heç birində müəllif haqqında məlumat verilmir.

2. İstədikləri şairin şeirlərindən nümunələri tərtib etdikləri divana daxil edirlər və onların müəllifləri də göstərilmir. Buna görə də hansı şeirin kimə aid olmasını təyin etmək çox çətin olur.[2]Eyni halı S.Ə.Şirvani də müşahidə etmiş və düzəlişini eləmişdir.

"Seçilmiş əsərlərin" tərtibçisi H.Abıyev də eyni nöqsanı müşahidə etdiyi və bəzi şeirlər arasındakı fərdlərin Dəxilə aid olduğundan çıxarılaraq kitabda verilmədiyini yazır.[3]

F.Köçərli şairin yaradıcılığını mümkün qədər ətraflı şərh edib və mərsiyəxanlar içərisində Ə. Racinin üstünlüyünü göstərib. O, şairin "Azərbaycan şüərasından Dəxildən sonra ən fəsih bülbüli-xoşəlhanı,... ən suznak növhəxanı" hesab edir. Pürqəmdən danışarkən onun Ə. Racidən bəhrələndiyini qeyd edir. Qəzəl, mərsiyə və təcnislərdən nümunələr verir. Səburun mərsiyəsinin farsca mətnini verib və Ə. Raci divanının qəzəliyyatı-farsi, qəsideyi-türki, qəzəliyyatı-türki, təcnisi-türki şəklində tərtib olunduğunu bildirib. F.Köçərli Səburun növhəsindən əlavə şairdən iki qəzəl, bir təcnis, bir növhə və şeirlərindən ayrı-ayrı nümunələr də vermişdir.[4]

Sonrakı dövrlərdə H.Zərdabi, A.Sur, C.Məmmədquluzadə, S.Hüseyn,

---

[1]Əldə olan əlyazma nüsxəsi. 241, 138 s.
[2]Köçərli F. Azərbaycan ədəbiyyatı. II c., Bakı: Elm, 1981, s.347-349
[3]Raci. Seçilmiş əsərləri. Tərtibçi Abıyev Hafiz. Bakı: Sabah, 1992, s.3
[4]Köçərli F. Azərbaycan ədəbiyyatı. I c., Bakı: Elm, 1978, s.347-349

Ü.Hacıbəyov, C.Xəndan, R.Əfəndizadə və b. qələm əhlinin əsərlərində Raci ilə bağlı dağınıq məlumatlara rast gəlinir. Onun adı ən çox mərsiyə ədəbiyyatı, epiqonçu, mürtəce dini ədəbiyyatla bağlı yazılarda hallanır. Əksər halda isə ona tənqidi nöqteyi-nəzərdən yanaşılır. Feyzulla Qasımzadə mərsiyə ədəbiyyatının nümunələrini sıralayarkən Ə. Racinin də adını çəkir. "Azərbaycan ədəbiyyatı tarixi" kitabında da sadəcə mərsiyəçi kimi adı çəkilir və təziyədarlıq ədəbiyyatının "Azərbaycan ədəbiyyatının realist – demokratik keyfiyyətlərinə tam ziddiyyət təşkil etməsi" göstərilir.[1]

M.Tərbiyət "Danışməndani Azərbaycan" əsərində Raci haqqında qısa məlumat verir. Doğum ilini 1247 (1831), ölümünü isə Səburun şeirindəki maddeyi-tarixə əsasən "Əya qaffar" 1293 (1876) kimi göstərir. Fars və türk dillərində "Divan"nın Təbrizdə dəfələrlə çap olduğunu bildirir. Oğlu Əbdulməcidin Naci təxəllüsü ilə şeirlər yazdığını və şeir divanının olduğunu qeyd edir.[2]

Cavad Heyət Raci haqqında da qısa məlumat verir. Farsca və türkcə qəzəllərindən nümunələr, təcnisdən 6 beyt verir. Müəllif "Ta tora, ləli-ləb ey dust, ze mey rəngin əst"(Nə qədər ki, ləl tək dodağın şərab rəngindədir) mətləli farsca qəzəlinin tərcüməsini də vermişdir.[3]

Yazıçı Anarın rəhbərliyi ilə tərtib edilən "Min beş yüz ilin oğuz şeiri" adlı antologiyada 5 qəzəli, bir növhə və 5 beytlik bir əfradı verilmişdir.

Kamal Talıbzadə Azərbaycan ədəbiyyatşünaslığında tənqid tarixini incələyərkən Raci kimiləri epiqonçu ədəbiyyatın nümayəndələri olaraq görür.[4] Onları müdafiə edən Ünsüzadə qardaşlarından da "Əcabə, Şeyx Nizamiyə abidə tikmək həvəsində olan nəslimiz Racini unudaraq, Qumrisinə xor baxacaqmı" deyən S. Hüseyndən də, "O, kitabların ("epiqonçular"ın əsərlərinin S.H.) ədəbiyyat silkinə daxil olmağa nə ləyaqətləri vardır?" deyən R. Əfəndiyevdən də nümunə göstərir.

M.İbrahimov Raci yaradıcılığına bir qədər ətraflı toxunaraq onu qiymətli xidmət göstərən şairlərdən biri hesab edir. "Onun da qəzəllərində dini və dünyəvi məhəbbət: zahid və rind, eşq və mal-dövlət kəskin bədii kontrast təşkil edir" – qənaətinə gəlir, şeirlərdən nümunələr gətirir və məşhur "Nə eşq olaydı..." qəzəlini qabarıq nəzərə çatdırır. Antologiyadakı ön sözün müəllifi M.İbrahimov Racinin 36 qəzəlini bura daxil edib. Lakin

---

[1]Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. II c., Bakı, 1960, s.16
[2]Tərbiyət M. Danişməndani Azərbaycan. Bakı: Azərnəşr, 1987, 433, s.271
[3]Heyət Cavad. Azərbaycan ədəbiyyatına bir baxış. Bakı: Yazıçı, 1993, s.104-106
[4]Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı: Maarif, 1984, s.87,94-95

bunların 24-ü eynən "Seçilmiş əsərlər"də vardır, qalan 12-si isə yoxdur.[1] "Dahilərin göz yaşı" kitabında Racinin on beş növhəsi çap edilib, bunlardan onunun arasında əfradlar verilir, bəzi əfraddan sonra "tamamiyi-növhə" və ya "baqiyi-növhə" qeydi var. Əfradların məqtə beytində müəllifin adı yoxdur.[2] Hafiz Abıyev əfradların Dəxilə aid olduğunu göstərir. Kitabdakı şeirlərin hamısı "Seçilmiş əsərlər"də var. (əfradlardan başqa, H.Abıyev onları ixtisar edib). Kitabın tərtibçisi "bir dostunda S.Ə.Şirvaninin öz dəsti-xətti ilə köçürtdüyü "Növhələr" kitabını görmüşdüm", – deyir. Çox güman ki, orada da Raciyə məxsus mərsiyələr mövcuddur. "Necə qan ağlamasın daş bu gün" kitabında şair haqqında yığcam məlumatla birgə 11 mərsiyəsi verilmişdir.[3]Qazi Hacı Mirəziz Seyidzadənin "Kəlam" jurnalında "Azərbaycan mərsiyə ədəbiyyatı" və "Əbülhəsən Raci"[4] adında iki məqaləsi çap olunmuşdur. Z.Əsgərli antologiyada Racidən ayrıca söhbət açır.[5]

Milli Elmlər Akademiyasının kitabxanasında Racinin "Divani-Raci" adlı və

F 1457–1290, F 1921,

F 2111 – 1294, F 2630 – 1293

F 412, F 1457 və F 985 MIAZ79, f 2725 – 1247 şifrəli "Divan"ları saxlanılır. Bunlardan ancaq F 1457 – 1290 F 2630 – 1293, F 2111 – 1294 şifrəli "Divan"ında"(1247-1931) tarixdə təvəllüd yafte" şəklində qeyd var.

Qalan "Divan"ların əvvəli və sonu ya aşındığından, ya da olmadığından heç bir əlavə məlumat almaq olmur. "Divani-farsi" şəklində qeyd olunanların çoxunda ana dilində də nümunələr verilmişdir. Bəzən növhələrdə bəndlər arası ərəb dilində şeirlər verilir.

Mənbələr və əldə olan "Divan"lar Racinin türkcə, farsca şeirlər divanının dəfələrlə Təbrizdə və Tehranda nəşr olunmasını təsdiq edir. Bu divanlara başqalarının, xüsusilə Dəxilin şeirlərindən nümunələr salınmışdır. Ə.Raci şeirlərində bir çox məsələlərə toxunsa da, əsasən məhəbbət və dini mövzularda yazmışdır. N. Rizvanın "Raci lirikasının bəzi xüsusiyyətləri" məqaləsində Racini qüdrətli... novator... XIX əsr poeziyasında görkəmli

---

[1]Cənubi Azərbaycan ədəbiyyatı analogiyası. 3 cilddə. I c., Bakı: Elm, 1981, s.28

[2]Dahilərin göz yaşı, mərsiyələr Tərtibçilər M.İ.Əliyev, A.F.Ramazanov. Bakı: Elm, 1990, s.28-57

[3]Necə qan ağlamasın daş bu gün, (mərsiyələr, sinəzənlər, qəsidələr) Tərtibçi Islam Qəribli,Teymur Kərimli. Bakı: Yazıçı, 1993, s. 39

[4]"Kəlam" jurnalı. Bakı, 2002, avqust, s.40-43, Bakı, 2002, sentyabr, 2, s.51-52

[5]XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb. 2005, s.7-9

yerlərdən birini tutan... bir lirik” şair kimi təqdim edir. Tehran-1340, Təbriz-1295-ci illərdə “Divani-Raci” adlı kitablarının çap olunduğunu göstərir.[1]

Dissertasiyada Racinin heç bir nəşrə düşməyən, Lənkəranda mərsiyəxanlardan əldə olunan 4 mərsiyə və 6 beytlik əfrad əlyazmaları da tədqiqata cəlb olunmuşdur.[2]

Bunlardan əlavə əlimizdə Racinin Sirus Qəmərinin tərtibi ilə 1364-cü (1945) ildə Təbrizin “Firdovsi” nəşriyyatında çap etdirdiyi “Külliyati-Divani-Raci” qəzəllər, qəsidələr və mərsiyələrdən ibarət əlyazmanın fotosurəti,[3] bir də Əbulfəzl Əhmədlunun 1377-ci (1957) ildə “Divani-Raci-Təbrizi”[4]və 1379-cu ildə nəşr etdirdiyi “Raci Təbrizinin növhə və mərsiyələri”[5] kitablarıdır. Cənab Əbulfəzl Əhmədlunun kitablarının üstünlüyü ondadır ki, Raci ilə bağlı özünəqədərki nəşrlərin hamısını – Təbrizdə və Tehranda basılmış beş “Divan”a və Bakı nüsxəsinə sərf-nəzər edir, hərəsi haqqında fikir yürüdür, Racinin təsirləndiyi mənbələr, müasirləri, Racidən təsirlənənlər haqda qısa xülasə verir. Dövrü və mühitindən danışır. Ən önəmlisi də şairlə bağlı bu günə qədər məlum olmayan “Şəcərənamə”nin (fars dilindədir) verilməsidir. Burada Ə. Racinin özü və nəsil şəcərəsi haqqında ətraflı bilgilər verilir. Racinin yaradıcılığını tədqiq edərkən bu kitablara yeri gəldikcə toxunur və bu bilgilərə istinad edilir.

“Cənubi Azərbaycan ədəbiyyatı tarixi” kitabının Əbulhəsən Raciyə aid 43 səhifəlik oçerki yazan Nazim Rizvan şairin həyat və yaradıcılığı ilə bağlı ətraflı, geniş və yeni bilgilər verir.[6] Maraqlı mülahizələrlə çıxış edir ki, tədqiqatda yeri gəldikcə mötəbər mənbə kimi N. Rizvanın fikirlərinə və son illərdə çıxan başqa mənbələrə də istinad edilmişdir.

Türkiyədə çap olunan bir mərsiyələr toplusundan da istifadə edilmişdir. 809 səhifəlik bu antologiyada 209 şairin mərsiyəsi verilmişdir. Az qismi XVI-XVII əsrə, qalanları bizdəki kimi XIX əsrə aid olan bu şairlərin mərsiyələrinin dili, üslubu və məzmunu Azərbaycan şairlərinə çox

---

[1]Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, №2, s.43

[2]Hüseyn Sədrəddin. Hacı Əbülhəsən Racinin yeni üzə çıxan mərsiyələri // Filologiya məsələləri. № 4. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı: Elm və təhsil, 2014, s.313-320

[3]Külliyati-Divani-Raci, .S.Qəməri Təbriz: Firdos kitabxanası, 1364

[4]Divani-Raci Təbrizi. Tərtibçi Əbulfəzl Əhmədlu. Təbriz: Fəxri-Azər nəşriyyatı. 1379

[5]Raci Təbrizinin novhələri və mərsiyələri. Tərtibçi Əbulfəzl Əhmədlu, ”Fəxri-Azəri”. Təbriz: 1389

[6]Cənubi Azərbaycan ədədbiyyatı tarixi. I c., Bakı: Nurlar nəşriyyatı, 2009, s.247-290

yaxındır, hətta daha xəlqi və sadədir.[1]

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatda klassik ədəbiyyata, Racinin yaşayıb yaratdığı dövr və mühiti barədə yazılmış əsərlərə, Cənubi Azərbaycan ədəbi mühitinin inkişafının tədqiqi ilə bağlı olan elmi-nəzəri əsərlərə, dünyəvi və dini şeirlərini tədqiq edərkən həm Azərbaycan, həm də xarici ölkələrə məxsus qaynaqlara və elmi fikirlərə, dini-fəlsəfi mənbələrə, poeziyanın dəyərləndirilməsində bəşəri elmi-estetik düşüncələrə, tarixi müqayisəli metoda istinad edilir.

**Tədqiqatın elmi yeniliyi.** Bu günə qədər Raci ilə bağlı informativ bilgilər verilməsinə baxmayaraq onun haqqında sistemli tədqiqat işi aparılmamışdır. Burada ilk dəfə Racinin şəxsiyyəti və poetik irsi barədə yazılanları sərf-nəzər etmiş, şairin çap olunmuş müxtəlif əsərlərini tutuşdurmuş, müxtəlif tədqiqatlardan faydalanaraq ədəbi irsinə obyektiv qiymət verməyə çalışmışıq. Əldə olan nüsxələri, xüsusən son Təbriz nəşrlərini incələyərək həyatı, yaşadığı illərlə bağlı faktları dəqiqləşdirmiş, yenilikləri üzə çıxarmışıq.

Ə. Raci kimi mərsiyəxanların əsərlərini epiqonçu və sxolastik mürtəce dini ədəbiyyat möhüründən xilas edib bir ədəbiyyat nümunəsi, ədəbi hadisə kimi təqdim etməyə çalışmışıq.

Racinin dünyəvi və dini şeirlərini klassik ədəbi irsin anoloji nümunələri ilə müqayisəli şəkildə, İslam dini və dinlər tarixi ilə, bu sahədə yazılan elmi əsərlərlə əlaqələndirərək tədqiq etmiş, onun əsərlərinin sadəcə öz dövrünün məhsulu deyil, həm də klassik Azərbaycan ədəbi irsinin, öz xalqının bədii təfəkkürünün, Şərq dini və fəlsəfi fikir tarixinin məhsulu, onların qanuni və məntiqi davamı olduğu qənaətinə gəlmişik.

Bədii ədəbiyyatda Eşq, Canan və Can anlayışları haqqında fərqli və yeni qənaətlərə gəlinmiş, klassik sənətkarların yaradıcılığındakı ziddiyyətlərin kökü araşdırılmış, səbəbləri məntiqi dəlillərlə əsaslandırılmışdır.

Məzhəblər və təriqətlərlə bağlı, Kərbala hadisələri ilə, imamət və vəlayət anlayışı və tarixi ilə bağlı bir çox məsələlərə aydınlıq gətirilmişdir. Sənətkarlığı ilə bağlı Raciyəxas xüsusiyyətləri ədəbiyyatımız kontekstində aşkarlamış, göstərilənlərlə əlaqədar şairin ədəbiyyatımızda xüsusi yeri olduğu, varislik əlaqələrində özündən əvvəlkiləri tamamlayaraq bir mərhələ təşkil etdiyi, özündən sonrakıların yaradıcılığına da ciddi təsiri olduğu faktlarla göstərilmişdir.

Racinin "Divan"lara düşməyən və əllərdə olan dörd mərsiyəsi

[1]Mehmet Arslan (Prof.dr.), Mehmet Erdoğan. Kerbela mersiyeleri. Tunceli Universitesi. Qrafikler yayinevi. Ankara,2009

aşkarlanmış, onlarla bağlı ayrıca məqalə yazılmışdır.[1]

**Tədqiqatın elmi-praktik əhəmiyyəti.** Dissertasiya XIX əsrdə Cənubi Azərbaycanda yaşayıb yaratmış Ə. Racinin həyat və yaradıcılığına həsr olunub. Məsələlərə elmi reallığın və dövrün tələblərinə uyğun olaraq klassik irsə ideologiyadan, siyasətdən uzaq, obyektiv, yeni və fərqli prizmadan yanaşılır. Bu yanaşma epiqon ədəbiyyata və onun bir nümayəndəsi kimi təqdim olunan Ə.Raciyə yeni baxışın formalaşmasına təsir edə bilər. Əsər XIX əsr Şimali və Cənubi Azərbaycan ədəbiyyatı və ədəbi prosesi ilə, buradakı dini-fəlsəfi şeirlər ilə, Cənubi Azərbaycan ədəbi dili ilə maraqlananlar, eyni zamanda ali məktəblərin filologiya fakültələrində təhsil alanlar və bu sahədə tədqiqatla məşğul olanlar və kütləvi oxucular üçün də faydalı olar və sovet dövründə üzərinə qadağa qoyulmuş müəlliflərin və mövzuların öyrənilməsinə də gərək ola bilər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiyanın mövzusu AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan Ədəbiyyatı" şöbəsində yerinə yetirilmişdir. Tədqiqat işinin əsas nəticə və müddəaları Respublikanın nüfuzlu elmi jurnallarında dərc edilmiş, Respublika və beynəlxalq elmi konfranslarda oxunmuş məruzələrdə öz əksini tapmışdır.

**Tədqiqatın quruluşu**. Qarşıya qoyulan məsələlərin həllinə uyğun olaraq tədqiqat işi giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat zamanı əldə edilmiş başlıca elmi qənaət və mülahizələr dissertasiyanın "nəticə" hissəsində ümumiləşdirilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində müvafiq formaya uyğun olaraq işin ümumi səciyyəsi:mövzunun aktuallığı, predmeti, elmi yeniliyi, metodologiyası və təcrübi əhəmiyyəti əsaslandırılır, habelə tədqiqatın məqsəd və vəzifələri aydınlaşdırılır.

**"Ə.Racinin həyatı, mühiti və dünyagörüşü"adlanan birinci fəslinin birinci bölümündə**Ə.Racinin həyatı və mühiti ilə bağlı bilgi verilir. Raci XIX əsrin ortalarında (1831-1876) Təbriz ədəbi mühitində yetişmiş, orada yaşayıb-yaratmışdır. Bu dövr Azərbaycanın bölündüyü, çarizmin və qacarlar rejiminin basqısı altında qalaraq ağır şərtlər altında mövcudluğunu qoruyub saxladığı bir dövr idi. Ədəbiyyatımızın xrono-

[1]Hüseyn Sədrəddin. Hacı Əbülhəsən Racinin yeni üzə çıxan mərsiyələri // Filologiya məsələləri. N 4. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı: Elm və təhsil. 2014, s.313-320

logiyası baxımından kanon maarifçiliyinin Avropasayaq maarifçiliyə keçid mərhələsi idi. Azərbaycan ədəbiyyatı iki istiqamətdə fəaliyyət göstərməyə məcbur oldu. Şimalda rus əsarəti altında bir tərəfdən kalssik ənənələri davam etdirir, digər tərəfdən də Rusiya vasitəsilə Azərbaycana gələn maarifçiliyin təsiri ilə maarifçi-realist ədəbiyyatını formalaşdırırdı. Klassik ədəbiyyatın, xüsusən də Füzulinin təsirindən qurtarmaq üçün Axundov və onun davamçıları ciddi mübarizə aparır, yeni yollar, yeni formalar axtarırdılar.Dövrün tələblərinə uyğun olaraq satiraya meyil güclənir, gələcək tənqidi realizmin bünövrəsi qoyulurdu. Bununla yanaşı, ədəbiyyatda klassik ədəbiyyatın təsiri ilə epiqonçu cərəyan izlərini qoruyub saxlamaqda idi. Bu dövrdə mərsiyə ədəbiyyatının güçlü nümayəndələri yetişirdi. Mərsiyə şairlərindən əlavə S.Ə.Şirvani kimi maarifçi-satirik şairlər də mərsiyələr yazırdı. Mərsiyə ədəbiyyatı Cənubi Azərbaycanda daha çox intişar tapırdı. Bunun əsas səbəbişah rejiminin xalqa qarşı dözülməz rəftarı və bilərəkdən mərsiyəxanlığa rəvac verməsi idi.

Şimalda mərsiyəçiliyin bir Qumrisi vardısa, Cənubda Ləli, Dəxil, Bixud, Raci, Sərraf və s. kimi məşhur nümayəndələri vardı.

Əbulhəsən Raci Təbrizin Xiyaban qəsəbəsində doğulub yaşamış, güzəranını əlaqəbəndlik və ticarətlə keçirmişdir. Həcc ziyarətinə getmiş, qayıdarkən Qırmızı dənizdə suya qərq olan gəmidə həlak olmuşdur. Öləndən sonra Səbur təxəllüslü bir şair ona bir mərsiyə yazmış, məddeyi-tarixlə ölüm ilini (1876) də göstərmişdir.

Mənbələrə istinadən deyə bilərik ki, Ə. Racinin ilk "Divan"ı vəfat etdiyi il (1876) Təbrizdə, sonrakılar müxtəlif illərdə dəfələrlə Təbrizdə və Tehranda çap olunmuşdur. Səburun mərsiyəsindən bu günə qədərRaci haqqında bir çox yazılar yazılmış, lehinə və əleyhinə müxtəlif fikirlər söylənmişdir.

Şair mərsiyələrində bir Allah, peyğəmbər, əhli-beyt aşiqi kimi şıxış edir. Bu əsərlərində müsəlman dininə bağlı, hər şeyin yaradılışını Allahda görən, yaradılan insanların da qayəsinin Ona qulluq olduğunu, axirət günü Ona hesabat verməli olduğunu qəbul edən bir şair görürük. Digər şeirlərində və qəzəllərində isə dünyagörüşü ziddiyyətlidir. Birbaşa Allahı, dini inkar yoxdusa da, zahidlərə, bir çox din mənsublarına qarşı ciddi tənqidi mövqedə dayanır. "Şərabla dəstəmaz alır, sevgilisinin üzünü qibləyə, xalını Hacər daşına" təşbeh edir; meyxanəni məsciddən üstün tutur. Gah Allah, gah dünya nemətlərinin, dünya gözəlinin eşqi, gah daikisinin qarışığından ibarət bir sevgi özünü göstərir. Bu ziddiyyət o qədər dərinləşir ki, nə edəcəyini bilmir,hər şeydən üz döndərir. "Nə eşq olaydı..." adlı məşhur

şeirini yazır ki, bu şeir sonradan M.Ə.Sabir, H.Cavid, M.Səffət kimi şairlərin ilham mənbəyi olmuşdur.
Ancaq bu ziddiyyətlər keçicidir, bütövlükdə götürəndə Raci idealist məfkurəyə sahib, Allaha bağlı, yaradılışın əzəlini və sonunu Ona bağlayan bir şair kimi üzə çıxır.

**Birinci fəslin "Ə.Raci poeziyasının qaynaqları"adlı ikinci bölümündə** Racinin bəhrələndiyi qaynaqlardan bəhs edilir. Qeyd olunur ki, şairin ən çox istinad elədiyi mənbə Qurani-Kərim,sonra Hədislər, dini və qeyri-dini əfsanələr, rəvayətlər, xalq ədəbiyyatı və klassiklərin əsərləridir. Bu mənbələrdən şairin necə bəhrələndiyi dissertasiyanın əvvəlindən sonuna qədər müşiayət olunur. Bu bölümdə isə xalq ədəbiyyatı, deyimlər, atalar sözləri və s. ilə Ə.Raci şeirləri arasında paralellər aparılır; onun klassik ədəbiyyatımızdan İ.Nəsimi, İ.Həsənoğlu, M.P.Vaqif, A.Abbasdan bəhrələndiyi nümunələrlə göstərilir. "Əhya ola bu nəzmim ilə əzmi-Füzuli, Bu möcüzəmin şahidi İsayi-zamandır"[1] deyə sanki öz manifestini elan edən şairin daha çox Füzuli təsirində olduğuna dair kifayət qədər bilgi verilir.O, Füzulini öz ustadı hesab edərək onun "əzmini" ihya edəcəyini bildirir. Lirik şeirlərində Füzulinin poetik dünyasının, mərsiyələrində isə "Hədiqətüs-süəda"nın təsirindədir. Qeyd etdiyimiz kimi, Racinin bəhrələndiyi mənbələr Quran, hədislər, xalq ədəbiyyatı, dini rəvayətlər və klassiklərdir.

Şairin həm də müasirləri və özündən sonrakı ədəbiyyatla qarşılıqlı əlaqələri də tədqiqata cəlb edilib, müqayisələr, onoloji paralellər aparılmışdır.

**Dissertasiyanın "Ə.Racinin lirikası" adlı ikinci fəslində**məhəbbət, fəlsəfi və ictimai motivli, bir də dini-fəlsəfi şeirlər araşdırılır.

**"Ə.Racininlirikasında məhəbbət mövzusu"** adlı yarımfəslində şairin qəzəlləri tədqiq olunur. Qəzəllər "Divan"ında şairin eşqlə bağlı lirik-romantik duyğu düşüncələri, poetik mənin daxili dünyası, eşqin predmeti, hicran yanğısı, vüsal həsrəti, dünyanın faniliyi, ilahi eşq ilə dünyəvi eşqin vəhdəti, paradiqması, teoqonik sublimasiya və s. kimi məsələlər araşdırılır. Daha çox Füzulinin təsiri ilə yazdığı aşiqanə lirik şeirlərində gözəlin zahiri əlamətləri, qaşı,gözü,zülfü,əlləri mədh olunur. Onların orijinal obrazı yaradılır. Şair dünya gözəlinin sevgisi ilə alışıb-yanır, "Qazaram sinəmi dırnaq ilə şirin-şirin, Eşq Fərhadı nədir,kuh nədir, tişə nədir?"[2]– deyə fədakarlığını bəyan edərək Fərhadlara meydan oxuyur, "yollarını qaş ilən, müjgan ilən silib süpürür", sevgilisinin zülf içində gizlənən çöhrəsini görmək üçün səbaya yalvarır, kipriyi ilə ona şanə çəkmək , o zülfləri

---

[1]Raci. Seçilmiş əsərləri. Tərtibçi Abıyev Hafiz. Bakı: Sabah, 1992, s.16
[2]Yenə orada, s.65

dərdinə dərman yerinə bağrına basmaq istəyir. Bu zülf ilə o qədər oynayır ki, bir də görür ki, "sübh açılıb".

Bu aşiq rəqibindən gileyli, bəzən ona yalvaracaq qədər düşkün bir məftun, bəzən də rəqibini qarğayan bir asi kimi görünür. Racieşqinin predmeti sadəcə dünya gözəli deyil. O eyni dərəcədə peyğəmbərə, səhabələrə, Əhli-beytə, hətta Kərbəlaya məftundur. Onun Allaha qarşı sevgisi də sonsuzdur. Bu çox vaxt Canan adı[1] ilə simvollaşır, Ona elə vurulur, Onda elə fani olur ki, özünü unudur, vəhdəti-vücud səviyyəsinə yüksələrək dünyanı da tərk edir, üqbanı da, "tərk"in özünü də. Ə.Racinin platonik eşqi "İnsanın Allaha sevgisində ifadə olunan həqiqi məhəbbət kodu İnsanın (aşiqin) İnsana (məşuqəyə) aşiqliyində ifadə olunan məcazi məhəbbət kodu ilə paralelləşir".[2]

Ə.Raci gözəllərinin daxili dünyası da safdır, təmizdir, millidir, Təbrizlidir.[3] Ona görə də "Məcnunu səhraya, məni şəhərə yazıblar",[4]– deyir. Ancaq bu daxilən saf gözəllərin əlindən başqaları kmi Raci də sinədağlıdır. Çünki arada rəqib var və təəssüf ki, çox vaxt "onu atıb rəqibi tutur". Beləcə Rəqib, Aşiq, Məşuq üçbucağında Racinin özünəxas böyük Eşqi tərənnüm və təsvir olunur.

**İkinci fəslin "İctimai motivlər"** adlıikinci yarımfəslində həyat, ölüm, insan, axirət, eşq, zövq-səfa, cövrü cəfa kimi anlayışlarla bağlı düşüncələri, din, əxlaq, təriqət, imamət kimi istilahlara münasibəti araşdırılır, şeirlərindəki ziddiyyətlər və onların səbəbləri haqqında maraqlı və orijinal fikirlər söylənir, məntiqi əsaslandırmalar və müqayisələrlə məsələyə aydınlıq gətirilir. Şair hər nə qədər dünyaya qarşı laqeyd olsa da, dərdi bir vüsal həsrəti, bir də rəqibdən can qurtarmaq dərdi kimi görünsə də, ictimai bəlalara da göz yummur. İctimai motivli fikirlər bir sistem təşkil etməsə də, bu fikirlər şeirlərin içində əridilir, şaha, onun sərbazlarına, cəlladlarına, zülmünə qarşı münasibətini elə ustalıqla ifadə edir ki, kimsənin onu suçlamağına əl yeri qoymur. Lirik şeirlər üçün ənənəvi olmayan *sərbaz, qəravul, bazar* və s. kimi sözlərə də ustalıqla bədii don geydirir. Özünün bu dünyada bir gün görmədiyini, "çərxi-kəcmədarın kamincə" dövr etmədiyini dərdli-dərdli dilə gətirərək elə ustalıqla ifadə edir ki, kimsənin onu suçlamağına əl yeri qoymur. Lirik şeirlər üçün ənənəvi

---

[1]Hüseyn Sədrəddin. Ədəbiyyatımızda can və canan obrazları / Azərbaycan-Avropa Ədəbi - mədəni Əlaqələr Mərkəzi. Tədqiqlər -2. Bakı: Elm, 2000. s.42-47

[2]Seyfəddin Rzasoy. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi. Bakı: Elm və təhsil, 2015, s.68

[3]Raci. Seçilmiş əsərləri. Tərtibçi Abıyev Hafiz. Bakı: Sabah, 1992, s.40

[4]Yenə orada, s.39

olmayan *sərbaz, qəravul, bazar* və s. kimi sözlərə də ustalıqla bədii don geydirir.Özünün bu dünyada bir gün görmədiyini, "çərxi-kəcmədarın kamincə" dövr etmədiyini, "Namərd ilə mərdanəni görəcək həqbin çeşmin olmadığını" bildirərək həmvətənlərinin durumunu,dövrün reallıqlarını bu şəkildə təsvir edir. Güzəranınıəlaqəbəndlik və ticarətlə keçirən, amma "Keykavusu, İskəndəri bir sınıq qəlyan ilən, bir şikəstə qəlb ilən"[1] saymayan bu məğrur şairin boynu haqq yolunda qıldan incədir. Lazım gələndə əhli-dünyaya meydan oxuyur, amma haqq dostlarına canını fəda edir. Kərbəla səhrasını göz yaşı ilə suvarmağa hazırdır.

**İkinci fəslin "Dini-fəlsəfi şeirlər"** adlı üçüncü hissəsində mərsiyə mövzusunun tarixən hər xalqın ədəbiyyatında özünəxas yer tutmasından söhbət açılır, xalq ədəbiyyatından bayatılara, "Dədə Qorqud" dastanlarına və klassik ədəbiyyata qədər mərsiyəçiliyin keçdiyi tarixi yola qısa bir nəzər salınır.

Bu hissədə Kərbəla və orada olan hadisələr xronoloji ardıcıllıqla izlənir. Bu faciənin tarixi kökləri və səbəbləri araşdırılır. Etibarlı qaynaqlara istinad edərək bunları araşdırmaqla XIX əsr Azərbaycan tarixi şəraiti ilə əlaqələndirilir. Azərbaycan ədəbiyyatında bu mövzunun Füzulidən başlayaraq geniş bir türk coğrafiyasını əhatə elədiyini və əksəriyyətində də İmam Hüseyn aktının, onun missiyasının mahiyyətini aşkarlayır.

Bununla belə, bu mövzuya və mərsiyə ədəbiyyatına da münasibət birmənalı olmamışdır. Çünki bu hadisə çox vaxt siyasiləşdirilmiş, dövlətlər, siyasi və dini qurumlar, ayrı-ayrı din xadimləri bundan öz məqsədləri üçün istifadə etmişdir. Nəticədə itirən sadə insanlar və müsəlmanlar olmuşdur. Bidətçilik böyümüş, mehdilik baş qaldırmış, fitnə meydan sulamış, qarşıdurma, təfriqə dərinləşmiş, axırda islam dünyası qruplara bölünmüş, nəticədə dünya savaş meydanına çevrilmişdir.

Məhərrəmlik mərasimləri də, orada oxunan mərsiyələr də çox halda bu fitnənikörükləməyə səbəb olduğundan haqlıolaraq bir çox mütərəqqi qələm əhlinin tənqidinə səbəb olmuşdur. Raci kimilərin əsərləri də çox vaxt bu səbəbdən gözardı edilmiş, tənqid olunmuş, ən yaxşı halda unudulmuşdur. Mərsiyə ədəbiyyatının, İmam Hüseyn fenomeninin əsl mahiyyəti isə gizlədilmiş, təhrif edilmişdir.

Təsadüfi deyil ki,Ə. Raci çox vaxt buraya "Kərbübəla" deyir. Bura çox dəyərli bir yerdir. Uhud və Bədrdən sonra bəlkə də islam dünyasında dəyərini itirməyəcək üçüncü müqəddəs məkandır. Bura Peyğəmbər nəvəsinin qanı tökülüb. Onun əhli-beytinin qanı ilə suvarılıb. "*Qaldı yerdə*

---

[1]Raci. Seçilmiş əsərləri. Tərtibçi Abıyev Hafiz. Bakı: Sabah, 1992, s.44

*çün Kərbəla nəşi üryan Qasimin, Bas bağrına, yaxşı saxla,can sənin, can Qasimin*",[1] – deyərək İmam Həsənin şəhid balasını ancaq ora əmanət edir."*İndi hər gün ruzi-aşuradır, indi hər yer Kərbəla*" deyərkən də İslam dünyasında fəlakətin, müsibətin bitməyəcəyini, daha doğrusu, din düşmənlərinin bu ocağı sönməyə qoymayacağını, körükləyib alışdıracaqlarını, hər zaman haradasa bir yezid xortladıb müsəlmanlara müsəllət edərək onların başına bəla gətirəcəklərini bəyan edir. Necə ki, İmam Hüseyn müsibətini törətdilər.

Ə.Raci başqalarından fərqli olaraq məsnəvi yazmır, hadisələri ardıcıllıqla təsvir etmir. Mürəbbe şəklində olan mərsiyələrin hər birində az qala hadisələrin hamısı var. Hər dəfə ayrı qəhrəmandan,ayrı hadisədən bəhs etsə də, o hadisəni digər obrazlarla bağlayır, onun fonunda digər hadisələrə də toxunub elə ustalıqla əlaqələndirir ki, nəzərimizdə bütöv Kərbəla və bütöv hadisələr canlanır. Hadisələrin real təsviri var, mübaliğələr olsa da inandırıcıdır. Oxucunu hadisələrin içində yaşada bilir.
İmam Hüseyn tərəfdarlarının da, düşmənlərin də real və yaddaqalan obrazı yaradılır.

Ə.Raci mərsiyələrinə bütöv bir əsər desək, onun baş qəhrəmanı İmam Hüseyndir. O, xeymələrdəki 72 məsumun başçısıdır. Oğlanları ilə birgə bütün əli qılınc tutanları savaşa göndərir, onların şəhidliyinə mərdanəliklə dözür, qədərə boyun əyərək ən sonda özü də vuruşa gedir və adına layıq bir qəhrəmanlıq göstərərək şəhid olur, amma haqsızlığa dözmür, zülmə biət eləmir. Onun missiyası lap başdan bəlli idi. Kərbəlaya yola düşərkən bacısı Zeynəblə dərdləşir və ona "*Belə əhd eyləmişəm, ey bacı Cananım ilən, Kərbəlada boyanım, mən gərək öz qanım ilən*"[2] deyərək öncədən yazılmış qədərinin dalınca gedir.

Mərsiyələrdə yeri gəldikcə Peyğəmbərimizin (s.ə.s.), Hz.Əlinin, digər xəlifələrin də adları çəkilir və hadisələrlə əlaqələndirilir,epizodik olsa da, yadda qalan obraz kimi canlandırılır.

Ə.Raci digər şeirlərindən fərqli olaraq mərsiyələrində bir mövqedədir. Burada o nə istədiyini və nə dediyini gözəl bilir. Əhli-beyt sevgisi və bir gün oranı ziyarət edib göz yaşı ilə o müqəddəs torpağı sulamaq. Bir də Haqq uğrunda necə candan keçməyin nümunəsini göstərmək. Mərsiyələrindən görünür ki, o istəyinə nail olub, bu yanıqlı şeirlər insanı sadəcə kədərləndirib ağlatmır, həm də qəlbini rahatlandırır, Kərbəla müsibətini içində sevə biləcəyi şirin bir ağrıya döndərir. Və nəhayət, bir qəsidəsində fikirlərini belə yekunlaşdırır:

---

[1]Raci. Seçilmiş əsərləri. Tərtibçi Abıyev Hafiz. Bakı: Sabah, 1992, s.232
[2]Yenə orada, s.104

Bu əsrari-şəhadət nüktəsin, Raci, sual etmə,
Bu bir şövqi-vüsali-həqqdür əhli məhəbbətdə.[1]

**Dissertasiyanın üçüncü fəslinin"Ə.Racinin şeir, sənət haqqında düşüncələri" adlı birinci hissəsində** Racinin sənətə baxışı, bəhrələndiyi mənbələr haqqında bilgi verilir.Şair yeri gəldıkcə bəzi sənət məsələlərinə öz münasibətini bildirmişdir. Ə. Raci şeirə həssas yanaşır. Ona çox incə məsələ kimi baxır. Yüksək sənətin yüksək elmlə, savadla ola biləcəyi fikrindədir. Bunun üçün elmlərin əsas qaynağı kimi Quranaüstünlük verir. Hər şeyi dərkin yolunun burdan keçdiyini bildirir.

Dur eylə sureyi-ixlası həzərxan, Raci,
Müdərris ol ruxi-ümmülkitabə baxmaqdan.[2]– deyərkən də Quranı nəzərdə tutur. Bunsuz haqqı dərk etmək mümkün olmadığı kimi, Racini də anlamaq çətin olacaqdır.

Qəşr ilə annamaz bu sözün, Raci, məğzini,
Dərrakə yox bu şəhrdə ləbbü ləbbadə.[3]

"Annamaq" üçün "rümuzi-eşqi dərk etmək" lazımdır. Rümuzi-eşqi dərk etmək üçün eşqə düşmək lazımdır. Çünki "bu" eşq ilə "Hüsnün mətalibin kəşf etmək" olur. "Kəşfi-raz etməyə zəbanı olmasa da, yarə dərdini yenə də rəmz ilə bildirir" və rəmzlərlə danışmağı xoşlayır. "*Rümuzi-eşqi dərk eylə bu Qurani mütərcimlə"* -deyir.Sözə qarşı çox həssasdır. O dərk olunmayacağından, bir gün şeirərinin təhrif olacağından qorxur. Ustadı Füzuli kimi "*Bir hərfin bu şeirlərin salsa nəzərdən, Raci, görüm ol katibin əli qələm olsun"*[4]– deyir. Şair klassiklərdən bəhrələnib, onların əsərlərindən yaradıcılıqla istifadə etməklə özünü kamilləşdirir, şeirin "xeyli nazik məsələ"olduğunu, "buna diqqət yetirməyin" vacibliyini bildirir. Şair "hər "əlif-bey" oxuyan"ın üzündən "rümuzi-eşqin dillərə düşməyini" istəmir, "Fününi-şeirdə həddə, kəmalə yetdiyindən, indi kitab vəqti olduğundan" "vəsfi-nigari cəm eləməyi" lazım bilir.

Şeir dünyasında özünü təsdiqləyən, öz səsi, öz sözü, öz yeri olan şair "fününi-şeirdə həddə, kəmalə yetdiyini"[3], "vahidliyini" bilir. Buna görə də məsələyə çox həssas, yanaşır. Ənəniyyətdən, qürurdan, boşboğazlıqdan qorxur:

Raci, fününi-şeirdə gərçi vahidsən,
Dəm vurma çox ki, baisi-lafi-gəzaf olur[5].

[1]Raci. Seçilmiş əsərləri. Tərtibçi Abıyev Hafiz. Bakı: Sabah, 1992, s.245
[2]Yenə orada. s.66
[3]Yenə orada. s.20
[4]Yenə orada, s.7
[5]Yenə orada. s. 17

**Üçüncü fəslin "Bədii təsvir və ifadə vasitələri" adlı ikinci** bölümündə Ə.Raci şeirlərinin sənətkarlıq xüsusiyyətləri tədqiq olunur.Şeirlərinə təravət, zəriflik və şirinlik gətirən bu vasitələrdən zərgər məharətilə istifadə edən Raciyə xas yeniliklər faktlarla sıralanır. Məsələlərə yanaşma tərzində də onun üslubu fərqlənir. "Bütün ili rəqiblə olan sevgilisini bircə saatlığa da olsa görmək" istəyi, rəqibə yalvarma, qarğış eləmə, sevgilisinə qarşı münasibətin "duzlu, məzəli"[1] ifadəsi, ictimai və fəlsəfi görüşlərin orijinallığı yeniliklərdəndir. Təzadlar, təşbeh və istiarələr, təkrirlər onun şeirlərinin atributudur. "Nə künci-ğəmdə tükəndi fəğanünaləvü ah, Nə qoydi xəlq, eliyüm ahü zar kamimcə"[2] və ya "Deyəndə yandı dilim, dinməyəndə dil yandı, Nə eşqi gizlədə bildim, nə aşikar elədüm"[3]. Misallardakı ziddiyyətlər həyatın özündədir, fikirdədir ki, Racinin beytlərində, misralarında bu qədər şirin, xəlqi və orijinal səslənir. İfadələr çoxmənalılıq kəsb edir, poetizmlər iç-içədir: "Hilal qaşuva ey zülfi qarə, gəc baxanı, Cahanda rast görüm Zülfüqarə tez gəlsin"[4]. Bir yerdə sevgilisinin saçlarını yarasına basır, Kərbəlaya Qasımı tapşırarkən "bas bağrına, yaxşı saxla, can sənin, can Qasimin" deyirsə, başqa bir yerdə "*Söylə canana sənün dərdü qəmin sübhə kimi, Basaram bağrıma mən hər gecələr can yerinə"*[5]şəklində işlədir. Ümumiyyətlə, Raci poetizmləri orijinallığı, şirinliyi, özünəxas yeniliyi ilə müəllifini ədəbiyyatımızda bənzərsiz sənətkar kimi əbədiləşdirmişdir.

Racinin dili sadədir, xəlqidir, milliləşmədə müəyyən mərhələyə çata bilmişdir. Atalar sözlərindən tez-tez istifadə edir. Ya olduğu kimi verir, ya da şeirdə əridir. Özünün də elə fikirləri var ki, bu gün atalar sözü səviyyəsində Raci aforizmləri şəklində işlənməyə haqq qazanmışdır. "Gərçi deyillə, yoldu könüldən könüllərə"[6], "Külahun satgilən, xərc et, tüfeyl olma namərdə, Cahanda kəllə sağ olsun, külah əskik degül mərdə"[7] və s. Şeirləri şirin cənub ləhcəsində yazılmışdır.Başqa cənub şairlərindən fərqli olaraq burada dialekt fərqlilikləri qabarıq nəzərə çarpır. Bu özü də şairin yaradıcılığında normaya çevrilir və şeirə yeni bir üslub gətirir. Dissertasiyada bu məsələlər də geniş şəkildə işıqlandırılmışdır.

---

[1]Nazim Rizvan. Raci lirikasının bəzi xüsusiyyətləri // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəbiyyat. Dil və incəsənət seriyası. Bakı, 1990, № 2, s.37
[2]Raci Seçilmiş əsərləri. Tərtibçi Abıyev Hafiz. Bakı: Sabah, 1992, s. 67
[3]Yenə orada. s.10
[4]Yenə orada, s.9
[5]Yenə orada, s. 4
[6]Yenə orada, s. 80
[7]Yenə orada, s. 257

Tədqiqatın yekunu olaraq əldə edilmiş elmi-nəzəri qənaətlər dissertasiyanın **“Nəticə”** hissəsində ümumiləşdirilmişdir:

1. Yaradıcılığında müşahidə etdiyimiz üç mərhələdən poetik mənin prototipi-şairin özü görünür. Yəni öz həyatı ilə sanki əsərlərindəki şair mənini tamamlayır. Belə ki yazmağa “bismillah”la başlayıb ilahi eşqin bir çox pərdələrində gəzişən şair bəşər övladının bağışlanmaz günahlara batdığını, xilas yolunu isə tövbədə, Allaha qulluqda, ona qovuşmaqda görür. Öz həyatı ilə də kredosunu təsdiq edir.

2. Ə.Raci Azərbaycan klassik şairləri içərisində öz yerini tutmağa layiq sənətkardır. Ancaq əsərləri az çap edilmiş, az tədqiq olunmuşdur. Yalnız mərsiyəxanlar arasında tanınmış, məhərrəmlik mərasimlərində yada düşmüşdür. O da mərsiyəxan kimi daha çox Qumrinin adı hallandığından burada da Racinin “bəxti gətirməmişdir”. Bununla belə dəfələrlə “Divan”ı basılmış, bir qismi kitabxanalara düşmüş, bir qismi də Racisevərlərin şəxsi kitabxanalarında qorunub saxlanmışdır.

3.Şairin yaşadığı dövr Azərbaycanın və Yaxın Şərqin ən qarışıq, gərgin və bizim üçün arzu olunmaz olan, heç də xoş gələcək vəd etməyən bir dövr idi. Nəsrəddin şahın hakimiyyəti dövründə xalqın mənəvi və fiziki aşınması, assimiliyasiyası prosesi sürətlənmiş, Qüzey Azərbaycanı Rusiyanın, Güney isə İranın nüfuz dairəsində əzilməyə, əriməyə məhkum olunmuşdur. Belə bir şəraitdə sənətkarlar yaradıcılıqlarını dörd istiqamətdə davam etdirirdilər:

a. Klassik ənənələr üzrə,

b. Zülmə, istibdada, müstəmləkə rejiminə qarşı mübarizə hissləri oyandırmaqla,

c. Avropadan Rusiyaya yayılan, oradan da Azərbaycana gələn, bir az da milli əsaslara söykənən maarifçiliyi yaymaqla,

ç. Xalqın dərdi-bəlasını Kərbəla müsibəti fonunda dilə gətirməklə, Kərbəla dərdinə bürünüb özünü ağlamaq meyillərinin gücləndiyi vaxtda mərsiyə ədəbiyyatını inkişaf etdirməklə.

4. Raci yaradıcılığı özünəxas şəkildə ortaya çıxdı və lirik şeirləri ilə ilahi eşqin tərənnümünü Füzuli səviyyəsində dilə gətirməklə bərabər, həm də onu dünyəvi məhəbbətlə əlaqələndirdi. Bu ikisinin sintezindən ibarət zəngin bir poeziya yaratdı. Bir də bunların içərisinə ictimai ruh qataraq bir çox məsələlərə özünün münasibətini ustalıqla və mətnaltı ştrixlərlə verə bildi.

5. Mərsiyə ədəbiyyatının zənginləşməsində, Kərbəla faciəsinin əsil məram və məqsədinin aşkarlanmasında misilsiz rol oynadı. Əbu Süfyandan tutmuş Şümrə qədər, Peyğəmbərimizdən (s.ə.s) tutmuş Zeynəlabidinə

qədər və  bu hadisələrlə bağlı olan digər elementlərin obrazlaşdırılmasına qədər zəngin bədii obrazlar silsiləsi yaratdı.

6. Klassik ənənələri üzvi şəkildə özündə əks  etdirməklə müasirləri və özündən sonrakıların yaradıcılığı arasında önəmli bağlantılar qurdu. Ədəbiyyatımızı yeni bədii keyfiyyətlərlə, deyimlərlə, bədii təsvir və ifadə vasitələri ilə zənginləşdirdi. Racinin dili poetikdir, şirindir, oxunaqlıdır, ahəngdardır. Şirin cənub ləhcəsi ilə ədəbi dilimizi zənginləşdirdi, mərsiyələri ilə ədəbiyyatımızda yadda qalan obrazlar silsiləsi yaratdı.

7. Tədqiqatlar göstərdi ki, bu iş klassik ədəbiyyatın, tarixin kontekstində, onunla əlaqəli görülməlidir. Əsərlərindən onun haranın və hansı dövrün şairi olduğu qabarıq hiss olunmasa da, o, dövrü və mühitindən əlahiddə bir sənətkar deyil. Ə.Raci dinə çox bağlı şairdir. Bu baxımdan islam dini, onun tarixi, xüsusən Kərbəla əhvalatı, təriqətlər və məzhəblər, sufilik və onun qolları dərindən öyrənilməlidir.

8.Ə.Raciyə Nəqşibəndi, Muhyiddin Ərəbi, Həllac Mənsur, Şəms Təbrizi, M.C.Rumi, hətta Yunis Əmrə kimi ürəfa əhli demək, onu təsəvvüf şairi adlandırmaq mümkün olmasa da, bu sayılan sifətlər “dərvişsifət” Racinin həm yaradıcılığında, həm də həyatında özünü göstərməkdə və haqq yolunun yolçusu etməkdədir. Çünki o, bir mürşidin yanında seyri-sülukunu tamamlayan bir mürid olmadı, onun nəzəri əsaslarına yiyələnə bilmək imkanına da sahib deyildi. Ona görə ara-sıra “Pir”indən danışdı və bacardığı qədər ustadlarının yolunu davam etdirərək müəyyən bir mərtəbəyə yüksələ bildi.

**Dissertasiyanın əsas nəticələri müəllifin aşağıdakı məqalə və tezislərində əksini   tapmışdır:**


1. Ədəbiyyatda “Can” və “Canan” obrazları / Azərbaycan-Avropa Ədəbi-mədəni Əlaqələr Mərkəzi.Tədqiqlər 2, Bakı: Elm, 2000. s.42-49
2. Əbülhəsən Racinin dünyagörüşünə bir nəzər / Azərbaycan Rüspublikası Təhsil Nazirliyi. ADPU. Filologiya məsələlərinə dair tematik toplu, № 3-4 (22-23), Bakı, 2002, s.11-23
3. Nə eşq olaydı… Filologiya məsələlərinə dair tematik toplu. № 1-2 (24-25) Bakı, 2003, s.119-121
4. Əbülhəsən Raci əsərlərinin nəşri və tədqiq tarixindən / Elmi Axtarışlar. VII toplu, Bakı: Nurlan, 2002, s.165-167
5. Azərbaycan ədəbiyyatında mərsiyə mövzusu vəƏbülhəsən Racinin mərsiyələri / Kafkas Universiteler birliği. Uluslararası Ağrı Sosial

Bilimlər konqresi, Ağrı, İ.Çeçen Universiteti. 25-27 /09 2013, s.405-410
6. Əbülhəsən Raci və qüzey Azərbaycan // "Xudafərin" jurnalı. Sayı 108-109. Tehran, Aban ayı,1393, s.23-29
7. Əbülhəsən Racinin Cənub nəşrləri // Journal of Qafqaz University. Philology and pedagogy. Bakı, 2013, I basqı, I cild, s.120-126
8. Klassiklərin tədqiqi və Əbülhəsən Raci / Filologiya məsələləri, № 2. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı: Elm və təhsil, 2014, s.335-340
9. Mərsiyə ədəbiyyatı M.Füzulidən M.Akifə // Törki xalıklar ədəbiyyatı həm sənqate şərık həm qareb mədəniyyəti kontekstında. Хаыкара фенни-гамели конферециясенен материаллары. 14-15 май 2014, ел. Казан, s.478-484
10. Hacı Əbülhəsən Racinin yeni üzə çıxan mərsiyələri. Filologiya məsələləri / AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, № 4. Bakı: Elmvə təhsil, 2014., s.313-320
11. Жизненная дилемма быть или не быть и искусство. Таврический Национальный Университет им. В.И. Вернадского, Том 27 (66), №3, Филология. Социальные Коммуникации. Украйна,Симферепоть, 2014, s.82-88
12. Əbulhəsən Racinin poetik dünyası / Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun elmi əsərləri. "Ədəbiyyat məcmuəsi", 2015, № 1, s.351-360
13. "Şəcərənamə"də Ə.Raci ilə bağlı yeni bilgilər // Journal of Qafqaz University. Philologyandpedagogy. Bakı, 2014, IIbasqı, IIcild. s.163-168

Садреддин Байрам оглы Гусейн

# ТВОРЧЕСКИЙ ПУТЪ АБУЛЬГАСАНА РАДЖИ

## РЕЗЮМЕ

Диссертация "Творческий путь Абульгасана Раджи" состоит из введения, трех глав и заключения.

Во ведении повествуется об актуальности темы, цели и задачах исследования, его объекте,теоретических и методологических основах, научной новизне, научно-практическом значении.

В первой главе приводится подробная информация об окружении А.Раджи, его жизни и мировоззрении. Раджи воспитывался в литературной среде девятнадцатого века, получил соответствующее образование и занимался торговлей. Поэт, живший приблизительно в 1831-1976 гг, погиб при крушении судна в Красном море, возвращаясь из хаджа. Азербайджан в то время был разделен между двумя странамии обречен на жизнь в двух совершенно разных культурах иидеологиияях. Верный своему прошлому и своим традициям Северный Азербайджан, находясь в зависимости, проявлял интерес к просвещению и культуре России и, через Россию, культуре Европы, и, приняв их, стремился к развитию в этом направлении. Южный же Азербайджан жил под властью дремлющего в тот период государства Гаджаров.

Раджи и его современники, с одной стороны, продолжали классические традиции в соответствии с периодом, а с другой стороны, различными способами делились своими политическими и социальными взглядами, а свое горе выражали в элегиях. В своих лирических, светских стихах Раджи оставался верным традициям Физули, нежели других классиков. Религиозные стихи поэта, в основном, посвящены событиям Кербела. Несмотря на противоречивый характер творчества, поэт был теистом. Он признавал Бога как творца всего сущего. Все философские взгляды поэта основаны либо на Коране, либо на хадисах, либо на религиозных житиях.

Во второй главе анализируются лирические стихи поэта. Его лирические стихи делятся на три части: любовная лирика, социально-политическая лирика и религиозно-философская лирика. Любовная лирика воплощает в себе как земскую, так и божественную любовь. Образы влюбленного, возлюбленной и соперника представлены в виде

трио. В лирических стихах поэта предстает образ влюбленного, жаждующего увидеть лицо возлюбленной, горящего от любви, но тем не менее стыдливого и нравственного. Образ же возлюбленной описывается лишь бровями, ресницами, локонами и иногда «нежными ручками».

В дополнение к философским взглядам в общественно-политической лирике поэта важная роль отведена его общественным взглядам, представленным с большой осторожностью и мастерством. Раджи очень тонко привносит в свои стихи шахских солдат, и палачей, и в свойственной ему манере выражает свое отношение к происходящему.

Большую часть творчества Раджи составляют его элегии. В диссертации освещаются события в Кербела на основании фактов и историко-политических взглядов. Привносится ясность в различные мнения относительно событий и стихов, посвященных этим событиям. Приводится объективный логический анализ причин событий, а также намерений и действий тех, кто использует их ради политических и личных финансовых выгод.

Элегии рассматриваются как литературное событие, культурный феномен. Раскрывается их значение и роль как в литературе, так и в социальной и культурной жизни. Определяется их роль в развитии нашей поэзии.

В третьей главе рассматриваются особенности творчества мастерство Раджи. Приводится сравнительный анализ фактов литературных источников поэта. Исследуются особенности языка и стиля поэта, использования им средств художественного описания и выражения. Рассматриваются оригинальные особенности творчества свойственного Раджи. Более того, приводится краткая информация о влиянии творчества поэта на последующую литературу.

В заключении подводятся итоги исследования Раджи. Приводится описание проведения исследовательской работы, а также причины сложности объективного анализа из-за исторических различий в отношении к теме, многочисленных искажений истины в советскую эпоху. Многие ценные источники, связанные с данной темой, были изъяты и запрещены, большое число ценных образцов утеряно. По этой причине в данном исследовании, были использованы доступные источники –копии «Диван»ов, находящиеся в Баку и Тебризе. Указана значимость творчества Раджи и темы элегий в нашей литературе.

Sadreddin Bayram ogli Huseyn

# THE CREATIVE WORKS OF ABULHASAN RAJİ

## SUMMARY

"The creative works of Abulhasan Raji"consists of an introduction, three chapters and a conclusion. In the introduction the relevance of the theme, purpose and objectives of the study, the object of theoretical and methodological foundations, scientific novelty, and scientific and practical significance of the work are presented.

The first chapter provides detailed information about the environment A. Raji, his life and outlook. Raji was educated in the literary circles of the nineteenth century, and engaged in trade. The poet, who lived approximately in 1831-1976, died in the crash of the ship in the Red Sea, returning from the Hajj. Azerbaijan at the time was divided between the two countries and doomed to a life in two very different cultures and ideologies.True to its past and its traditions Northern Azerbaijan, although being dependent, took an interest in education and culture of Russia and through Russia, the culture of Europe, and received them, and sought to developin this direction. Southern Azerbaijan live dunder the rule of the dormantat the time state of Gajars.

Raji and his contemporaries, continued the classical tradition in accordance with the period on the one hand, and on the otherhand, shared their political and social views in various ways, while expressing grief in elegies. In his secular lyricpoetry Rajare mained faithful tothe traditions of Fizuli, rather thanthe classics. Religious poems of the poet were mainly devoted to the events of Karbala. Despite the controversial nature of his works, the poet was a theist. He recognized God as the creator of all things. All the poet's philosophical views are based on either Qur'anor Hadithvor thevlives of thevreligious.

In the second chapter analyzes the lyric poems of the poet. His lyrical poems are divided into three sections: love poems, socio-political lyrics and religious-philosophical lyrics. Love poetry embodies both rural and divine love. Images of lovers and a rival are presented as a trio. In the lyric poems the poet presents the image of the lover, eager to see the beloved face, burningwith love, but neverthelessshamefacedand moral. The image of thebelovedis described only by her eyebrows, eyelashes, curlsandsometimes "delicate hands."

In addition to the philosophical views, in the politicallyrics of the poet importantrole is played byhis social views, presentedwith great careand skill. Rajivery subtly brings Shah'ssoldiersand executioners into his poems, andexpresses hisattitude in his own characteristic manner.

Most of the works of Raji are his elegies. The dissertation covers developments in Karbala events on the facts and historical and political views. It brings clarity to the different views on the events and poems dedicated to these events. Causes of events, as well as the intentions and actions of those who use them for political and self beneficial purposes are indicated with objective and logically, analysis with historical facts.

Elegies are regardedas a literaryevent, a cultural phenomenon. Revealed is theirimportance and role in the literature and in the social and cultural life. Their role in the development of our poetry is determined.

The third chapter discusses the features ofcreativity Raja. Sources he applied and literal upstream' analyses with comparative facts. The features of the language and style of the poet, his use of means of artistic expression and description are studied. The original features of creativity inherent to Raja are considered. Moreover, a summary of the impact of the poet on the subsequent literature is given.

In the conclusion the study of Raji is summarized. The description of the research work, as well as the reasons for the complexity of the objective analysis of the historical differences is shown in relation to the subject of numerous distortions of the truth in the Soviet era. Many valuable sources related to the topic were seized and banned, a large number of valuable samples lost. For this reason, in this study, available sources were used–copies of the "Divan"'slocatedin Baku and Tabriz. The importance of the works of Raji and the theme of elegiesin our literature is indicated.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ**

*На правах рукописи*

**САДРЕДДИН БАЙРАМ оглы ГУСЕЙН**

# ТВОРЧЕСКИЙ ПУТЬ АБУЛЬГАСАНА РАДЖИ

5716.01 – Азербайджанская литература

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени
доктора философии по филологии

**БАКУ – 2016**